# Qarabağ və Şərqi Zəngəzur smart texnologiyaya qovuşur

**Prezident İlham Əliyev ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən konfransda Avropa Parlamentinin sabiq üzvü və Avropa Parlamentinin Azərbaycanla əlaqələr üzrə nümayəndə heyətinin sədri Səccad Kərimin respublikamızın rəqəmsal kommunikasiya, kibertəhlükəsizlik sahəsindəki mövcud vəziyyəti ilə bağlı sualına cavabında ölkəmizin bu məsələni hər zaman diqqət mərkəzində saxladığını, müasir dünya trendlərinə daim üstünlük verdiyini bildirib.**

Dövlətimizin başçısı daha sonra azad edilmiş ərazilərdə ən son texnologiyalardan istifadəyə üstünlük verildiyini vurğulayaraq, iki il əvvəl, müharibə bitəndən dərhal sonra "Qarabağı yenidən quracağıq və dünyaya yenidənqurmanın yaxşı nümunəsini nümayiş etdirəcəyik" söyləməklə rəqəmsallaşmanın, üçüncü Sənaye İnqilabının ən son nailiyyətlərini dəyərləndirdiyini xatırladıb. "İndi bu, həyata keçir. Biz şəhərlərimizi və kəndlərimizi smart texnologiya platformasına əsaslanaraq tikirik və yenidən qururuq. Ağalıda ilk kənd artıq məskunlaşdırılıb. Oraya gedən hər kəs Qarabağın yenidən qurulması modelinin necə olacağını görə bilər. Çünki bu təkcə 30 il ərzində erməni işğalından əziyyət çəkmiş, layiqli həyat yaşamağa, tam qorunmağa layiq keçmiş məcburi köçkünlər qarşısında bizim mənəvi borcumuzun bir növ nümayişi olmamalıdır, həmçinin biz Qarabağın və Zəngəzurun yenidən qurulmasını bütün ölkə üçün nümunə hesab edirik".

Konfransda, həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının müasir texnoloji təcrübə, eləcə də inzibati idarəçilik əsasında bərpa edildiyi, bu ərazilərdə ölkənin digər yerlərindən fərqli inzibati strukturlar fəaliyyət göstərdiyi barədə məlumat verilib. Bununla bağlı işğaldan təmizlənən yaşayış sahələrində Prezidentin xüsusi nümayəndəlik institutu tərəfindən üç ərazidə artıq rəqəmsallaşma, texnoloji inkişaf və idarəçilik modellərinin uğurla sınaqdan keçirildiyi diqqətə çatdırılıb.

Prezident İlham Əliyev ABŞ-nin Yuta Universitetinin professoru doktor Hakan Yavuzun müvafiq suallarına cavabında isə erməni faşizmi tərəfindən işğal dövründə dağıdılan, yerlə-yeksan edilən Qarabağ və ətraf ərazilərin bərpası istiqamətində gerçəkləşdirilən layihələr barədə fikirlərini bildirib. Dövlətimizin başçısı misal olaraq Şuşada aparılan quruculuq işləri nəticəsində bu şəhərin sürətlə tarixiliklə müasirliyin qovuşduğu bir mədəniyyət paytaxtına çevrildiyini xatırladıb və Azərbaycanın belə bir incisinin işğalçının erməniləşdirilməyə cəhd göstərdiyini, lakin buna nail ola bilmədiyini söyləyib.



Dövlətimizin başçısı daha sonra deyib: "Müharibədən dərhal sonra Şuşanı ziyarət edəndə məni şok vəziyyətinə salan bir hiss o idi ki, əgər onlar Şuşanın onların şəhəri olduğunu düşünürdülərsə, nəyə görə o belə pis vəziyyətdədir? Çünki öz şəhərinə belə münasibət bəsləyə bilməzsən. Bir tikili belə bərpa edilməmişdir və ya bir bina belə tikilməmişdir. Laçın yolu üzərində – o yola baxan yerdə yerləşən yalnız iki villa var idi. "De-fakto" Qarabağ rəhbərlərinin iki villası idi. Bu villalarda hovuz, manqal var idi. Bu iki villanı ziyarət edən hər kəs dırnaqarası Qarabağ rəsmilərinin riyakarlıq və kleptokratiya səviyyəsini görür…".

Konfransda qeyd edildiyi kimi, burada söhbət təkcə Şuşadan getmir. Adamı dəhşətə gətirən işğal zamanı Ermənistanın Azərbaycan ərazilərində vandal əməlləri, yaşayış məntəqələrini, maddi-mədəni abidələri Yer üzündən silməsi, həmçinin ermənilərin qanunsuz olaraq məskunlaşdıqları kəndlərin 30 il ərzində dağıdılmış vəziyyətdə saxlanılmasıdır. Bəs belə bir şəraitdə erməni diasporunun hər il işğalçıya göndərdiyi milyardlarla dollar haradadır? Hər il işğalçı ölkənin diasporunun Amerika, Fransa və dünyanın digər dövlətlərindən olan ermənilərdən vəsait toplamaq üçün telemarafonlarda toplanılan pullar kimlərin cibindədir?

Dövlətimizin başçısı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yenidənqurma prosesindən danışarkən, mühüm bir məqama da toxunub. Bildirib ki, işğaldan azad edilən ərazilərdə tikinti, abadlıq layihələri əsasən, ilk növbədə, o torpaqlarda məskunlaşmanın ləyaqətli icrasına yönəldilib. "Zəngilan hava limanı mühüm əhəmiyyətə malikdir, çünki yüklərin daşınması daha asan olacaq. Ola bilsin ki, bir gün Zəngilan hava limanının beynəlxalq uçuş əlaqələri olacaq. Niyə də olmasın? Bura Azərbaycanın ən gözəl yerlərindən biridir, çox gözəl təbiəti, təbii bulaqları, çayları, ağacları var. Biz bütün lazımi infrastrukturu yaradanda bura cənnətin bir parçası olacaq. Eyni zamanda bura Ermənistan sərhədindən uzaqda deyil. Ona görə də sirr deyil ki, bu hava limanı, həmçinin təhlükəsizlik baxımından əhəmiyyət kəsb edəcək," – deyə ölkə rəhbəri sözlərinə əlavə edib.

Konfransda Zəngilan hava limanının Zəngəzur nəqliyyat dəhlizi üzərində yerləşən mühüm nəqliyyat mərkəzi olacağı, bu rayonda dəmir yolunun artıq tikildiyi, gələn il Ermənistan sərhədinə çatacağı, Füzulidəki hava limanından da hazırda həm yerli, həm də xarici qonaqlar tərəfindən fəal şəkildə istifadə olunduğu qeyd edilib. Bununla bərabər Laçında salınacaq hava limanının xüsusi əhəmiyyətə malik olacağı, bunun dağlıq relyefə malik olan Laçın və Kəlbəcərə gediş-gəlişi asanlaşdıracağı vurğulanıb.



Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulmasına ilk günlərdən həssaslıqla yanaşılır və bu münasibət hazırda da davam etdirilir. Məsələn, 2023-cü ildə qarşıya qoyulan əsas vəzifələrdən başlıcası düşməndən təmizlənən ərazilərin bərpası, Böyük Qayıdışın təmin edilməsidir. Ölkəmizin maliyyə imkanlarının ildən-ilə artması Qarabağın dirçəldilməsinə, o torpaqlarda iqtisadi fəaliyyətin canlandırılmasına maliyyə xərclərinin daha da artırılmasına təminat verir.

Onu da xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və 2022–2026-cı illər üçün nəzərdə tutulan Sosial İqtisadi İnkişaf Strategiyasında qeyd edilən vəzifələr çərçivəsində maliyyələşdirilir. Müvafiq olaraq gələn il adıçəkilən strategiya əsasən, müəyyənləşdirilən məqsədlərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizlik hissəsinin düşməndən təmizlənən yaşayış sahələrində yenidənqurma və quruculuq işlərinin görülməsinə yönəldilməsi nəzərdə tutulur.

Bütün bunlarla bərabər Qarabağda fəaliyyət göstərən rezidentlərdən 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergi tutulmaması qərara alınıb. Bununla yanaşı, işğalçıdan təmizlənən ərazinin rezidentləri tərəfindən istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilməsi və bir sıra digər güzəştlər nəzərdə tutulub.

Layihədə aqrar emal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə də vergi təşviqlərinin verilməsi ilə bağlı güzəştlər planlaşdırılır. Belə ki, idxal mallarını yerli istehsal malları ilə əvəz edəcək qida məhsullarının istehsalını həyata keçirən fərdi sahibkarların və hüquqi şəxslərin gəlirlərinin 50 faizinin gəlir vergisindən, habelə həmin fəaliyyət prosesində istifadə etdikləri əmlaka və torpağa görə əmlak və torpaq vergilərindən müvafiq siyahının təsdiqləndiyi ildən etibarən 7 il müddətinə azad ediləcəyi bildirilir.

**V.BİNYƏTOĞLU,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 29 noyabr.- S.5.